**Azərbaycan Milli Elmlər Akademiyası**
**Memarlıq və İncəsənət İnstitutu**

# Azərbaycan Musiqi Tarixi

Birinci cild
(Qədim dövrdən XX əsrə qədər)

Azərbaycan Milli
Kitabxanası

"Şərq-Qərb"
Bakı-2012

## ALTINCI BÖLMƏ

# XIX ƏSRİN MUSİQİ MƏDƏNİYYƏTİ. QARABAĞ VƏ ONUN ŞUŞA ŞƏHƏRİ MUSİQİMİZİN BEŞİYİ VƏ MƏBƏDİDİR

## XXI fəsil

### Mir Möhsün Nəvvab və onun elmi irsi. M.M.Nəvvabın dövrü həyatı və elmi irsinin icmalı

Nəvvab Mir Möhsün ibn Hacı Seyid Əhməd Qarabağı Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına XIX əsrin görkəmli ensiklopedisti kimi daxil olmuşdur. Çoxşaxəli istedad sahibi olan M.M.Nəvvab Azərbaycan elminin, ədəbiyyatının və sənətinin müxtəlif sahələrində dəyərli iz qoyub getmişdir. Onun zəngin və çoxşaxəli fəaliyyəti, elmi fikirləri və araşdırmaları iyirmidən artıq əsərində öz əksini tapmışdır.

Nəvvab "Cəfər Cəmei Mürtəzəvi", "Kənzül-Mühən", "Bəhrul-Həzən", "Muxtarnamə", "Məzamir", "Batili-sehr", "Beş yüz nəsihət", "Kifayətül-ətfal", "Qarabağ şairləri haqqında təzkirə", "Nücumiyyə", "Nurul-ənvar", 1905–1906-cı illərdə erməni-müsəlman davası, farsca və türkcə şeirlər divanı, "Kəşfül həqiqeyi-məsnəvi", "Vüzuhül-ərqam" kimi əsərlərin, həm də bir çox rəsmlərin və miniatürlərin müəllifidir.



Mir Möhsün Nəvvab Ağamirzadə 1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində anadan olmuşdur.

Nəvvab ilk təhsilini Şuşanın ruhani məktəbində almış, ərəb, fars və türk

dillərini mükəmməl öyrənmiş, sonralar rus dilini də mənimsəmişdir. O, molla Abbas Sarıcəlilin mədrəsəsində oxumuş, riyaziyyat, astronomiya, kimya və digər elmlərə yiyələnmişdir. Sonralar Nəvvab təhsilini sərbəst davam etdirmiş, biliyini daim artırmışdır.

M.M.Nəvvab dövrünün bilikli, oxumuş və mədəni adamlarından biri idi. Doğma Şuşa şəhərinin mədəni həyatında Mir Möhsün Nəvvabın rolu olduqca böyükdür. Onun Şuşada yaratdığı "Məclisi-fəramuşan" (Unudulmuşların məclisi) və "Musiqiçilər" məclisləri yalnız Şuşanın deyil, bütün Azərbaycanın mədəni inkişafında əhəmiyyətli rol oynamışdır.

Şuşada kitabxana və qiraətxana, "üsuli-cədid" məktəblərinin açılması da M.M.Nəvvabın adı ilə bağlıdır. Onun mətbəəsində Azərbaycan şairlərinin bir çox şeirləri çap edilib yayılırdı. Bu mətbəə Azərbaycanda kitab mədəniyyətinin inkişafında müsbət rol oynamışdır. O dövrdə Şimali Azərbaycanda Bakı və Şuşadan başqa heç bir yerdə mətbəə yox idi.

Əvvəlki dini məktəblərdən fərqli olaraq M.M.Nəvvabın təşəbbüsü ilə açılmış "üsuli-cədid" məktəblərində ədəbiyyat, tarix, coğrafiya və digər fənlərdən dərs keçilirdi. O şəxsən bu məktəblərin birində dərs deyirdi.

1903-cü ildə M.M.Nəvvab Şuşada qiraətxana açır, müxtəlif şəhərlərdən qəzet və jurnallar yazdırırdı.

M.M.Nəvvab Bakıdan "Əkinçi", Tiflisdən "Ziya" və "Kəşkül", Hindistandan isə fars dilində nəşr edilən "Həblül-mətin" qəzetlərini alırdı. Qiraətxana müxtəlif illərdə "Molla Nəsrəddin", "İqbal", "Səda", "İrşad", "Şərqi-Rus" və digər jurnal və qəzetləri də alırdı.

M.M.Nəvvabın özü "Ziya", "Kəşkül" və başqa qəzetlərlə əməkdaşlıq edərək, maarif, mədəniyyət və səhiyyə məsələlərinə dair məqalələr yazırdı.

M.M.Nəvvabın yaratdığı "Məclisi-Fəramuşan" məclisinə Abdulla bəy Asi, Fatma xanım Kəminə, Məşədi Əyyub Bakı, Həsənəli xan Abdulla, Həsən Şahid, Mirzə Xosrov və digər şairlər daxil idi. Onlar həm bir-biriləri ilə, həm də 1872-ci ildə Şuşada yaranmış və Xurşudbanu Natəvanın rəhbərlik etdiyi "Məclisi-üns" ədəbi məclisinin üzvləri ilə şeirləşirdilər. (5, 7–8)



M.M.Nəvvabın özü Həsənəli xan Qarabağı, Mirzə Ələsgər Novrəs, Fatma xanım Kəminə, Məşədi Əyyub Bakı, Xəlil Abdulla, Mirzə Muxtar Kaşidi və digər şairlərlə, eləcə də Xurşudbanu Natəvanla şeirləşirdi. O, Natəvanın oğlunun ölümünə şeir yazmışdır.

"Məclisi-fəramuşan"ın üzvləri Azərbaycanın digər şəhərlərində olan məclislərlə də, o cümlədən Şamaxıdakı "Beytüs-səfa" (bu məclisə məşhur şair S.Ə.Şirvani rəhbərlik edirdi), Bakıdakı "Məcmua-şüəra" və digər məclislərlə əlaqə saxlayıb şeirləşirdilər.

Nəvvab Qarabağın yüzə qədər şairi və onların şeirləri barədə məlumat verən "Təzkireyi-Nəvvab" antologiyasının müəllifidir. Onun bu əsərdə verdiyi məlumatlar ədəbiyyatşünaslıq elmi üçün xüsusi əhəmiyyət kəsb edir. M.M.Nəvvab yazdığı dibaçələrdə, müqəddimələrdə Vaqif, Vidadi, Xurşudbanu Natəvan, Zakir və digər şairlər, habelə ilk müəllimi Abbas Sarıcəli barədə məlumat vermişdir.

Mir Möhsün Nəvvabın yüksək bədii zövqü var idi. Bu cəhət onun poeziyasında, antologiyasında, kitablarının bədii tərtibatında, eləcə də şəxsi evinin, işlədiyi məktəbin və mədrəsənin divarlarında, Şuşanın "Böyük məscidi"nin iki minarəsinin naxışlarının çəkilməsində özünü biruzə vermişdir. Bu minarələrdəki naxışlar Şuşanın digər minarələrindəki naxışlardan həm forması, həm də gözəl tərtibatı ilə seçilirdi. Minarələrin naxışlarını M.M.Nəvvab özü işləmişdir. Mədrəsənin ikinci mərtəbəsində M.M.Nəvvabın iş otağı olmuşdur, onun da naxışlarını özü vermişdir. Məşhur musiqi və teatr xadimi C.Bağdadbəyov xatirələrində həmin otağı belə təsvir etmişdir:

"Nəvvabın gündüzlər oturduğu hücrə (mənzil – *Z.S.*) Şuşada yuxarı məscidin həyətində ikinci mərtəbədə idi. Bu otağın iki böyük pəncərəsi vardı. Pəncərənin biri məscidin həyətinə – qiblə tərəfə, digəri isə Şimala – bazara tərəf baxırdı. (Əvvəllər bazar yuxarıda qapandibində yerləşirdi – *Z.S.*). Hər iki pəncərənin açası gözəl güllərlə dolu idi. Otağın nəqqaşkarlığını Nəvvab özü işləmişdir. Nəvvabın mənzilinə adam nə qədər əsəbi və hirsli gəlsə idi, ilin hər fəslində açılmış güllərin qoxusu və otağın gözəlliyi onu sakitləşdirərdi". (18, 149)

M.M.Nəvvabın "Quşlar", "Güllər", "Teymurun portreti" və digər əsərləri məşhurdur. Bu əsərlərdə rəssamın dərin müşahidə qabiliyyəti özünü göstərmişdir. Yağlı boya ilə çəkilmiş bu əsərlər məzmunu, forması və rəng koloritinə görə müxtəlif olub, çox təbii və realistdir. M.M.Nəvvabın ornamentlərinin də motivləri çox rəngarəngdir. Onun əsərlərinin realizmi xalq sənətinin, eləcə də miniatür sənətin ənənələri ilə bağlıdır.

Azərbaycanda kitab sənətinin inkişafında M.M.Nəvvabın rolu xüsusilə böyük idi. Onun parlaq istedadı kitab tərtibatında özünü biruzə vermişdir. O bu işin ustadı idi. M.M.Nəvvab hələ gənc yaşlarından bədii tərtibat sənətinə, kitabların illüstrasiyasına aludə olmuşdur. Məsələn, 1850-ci illərdə o, Firdovsinin "Şahnamə" əsərinə çəkilən litoqrafik illüstrasiya üzərində yaradıcı iş apararaq, onları daha əlvan, baxımlı, emosional cəhətdən daha təsirli etmişdir.

M.M.Nəvvab "Bəhrul-Həzan" (1864–1865) kitabının illüstrasiyasını vermişdir. Buradakı beş miniartürdə o, müxtəlif döyüş səhnələrini əks etmişdir. Bədii cəhətinə, rəng çalarlarına görə bu miniatürlər klassik miniatürlərdən daha çox Şəki xan sarayının frizlərini xatırladır. (50, 52–54)

Miniatürlərdən başqa kitabda əlvan çəkilmiş başlıqlar, titul vərəqi, üz qabığı və s. də verilmişdir. Bu əsər M.M.Nəvvabın kitab illüstrasiyasının orijinal nümunəsidir. M.M.Nəvvabın bədii yaradıcılığının əhəmiyyəti bir də ondadır ki, onun rəsmləri XIX əsr Azərbaycan təsviri sənəti tarixinin öyrənilməsi, xüsusilə klassik miniatürün dekorativ üslubunun realist təsvir metoduna keçid dövrünün tədqiqi üçün qiymətlidir.

M.M.Nəvvabın çoxşaxəli fəaliyyətində onun astronomiya, riyaziyyat, kimya və digər elmlərə aid görüşləri də maraq doğurur. Səma cisimlərinin yerləşməsi, günəş sisteminin hərəkəti, günəşin batması və s. onun əsərlərində işıqlandırılmışdır. M.M.Nəvvab özünəməxsus olan iki teleskopla planetləri, ulduzları müşahidə etmiş və onların bəzilərinin modelini də düzəltmişdir. M. M. Nəvvabın "Kifayətül-ətfal" əsəri (1899) astronomiya üzrə dərslik kimi yazılmışdır. Əsərdə aydınlaşdırıcı zərli cədvəllər də verilmişdir.



M.M.Nəvvabın əlkimyaçıların reseptləri əsasında apardığı bir sıra təcrübələri isbat edirdi ki, iksirin vasitəsi ilə gümüşün, civənin qızıla çevrilməsi nəzəriyyələri həqiqətə uyğun deyil və bunlara inanmaq avamlıqdır.

M.M.Nəvvabın 2.458.624 hərfdən və çoxlu sxemdən ibarət böyük həcmli "Cəfəri-came-mürtəzəvi" əsəri xüsusi lüğətə bənzəyir.

"Nəsihətnamə", "Kifayətül-ətfal", "Nurul-ənvar" və s. kimi əsərlərində alim və pedaqoq M.M.Nəvvabın psixoloji və etik görüşləri əks edilmişdir. O, elmlərə böyük əhəmiyyət verirdi. M.M.Nəvvab qeyd edirdi ki, "Elm və hünərdən yadigar qoymaq yaxşıdır, nəinki mal və əmlakdan". M.M.Nəvvab sözə, nitq mədəniyyətinə xüsusi əhəmiyyət verirdi. O deyirdi ki, "Söz yalnız o vaxt təsirli olur ki, yerində işlənsin. Cəvahir kimi gözəl kəlimatları bimövqe yerdə və biviquf kəslərə demə ki, biqədr və biqiymət olur".

M.M.Nəvvab haqq, həqiqət tərəfdarı idi. O, "Güman zənni ilə heç kəsi günahkar bilib, onun təqsirinə şəhadət etmə" – deyə tövsiyyə edirdi.

Mir Möhsün Nəvvabın 1905-ci ildə yazdığı "Təvarixi-rəzm və şurişi tayafeyi-ərməniyeyi-Qafqaz ba firqeyi müsəlmanan", yəni "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iqtişaş tarixləri" adlı son dərəcə əhəmiyyətli, bu gün ilə səsləşən və ortaya atılmış süni Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsi üçün qiymətli olan bu əsəri yalnız 1993-cü ildə, yəni yazıldığından 88 il sonra nəşr edilmişdir. (73, 55–56)

Bu kitabı oxuyarkən, Nəvvabın qələmə aldığı erməni-müsəlman davası ərzində ermənilərin Bakıda, İrəvanda, Naxçıvanda, Təbrizdə, Şuşada, Tiflisdə, Gəncədə və başqa şəhər və kəndlərdə törətdikləri vəhşilikləri, zülmü təsvir edən hadisələr və faktlar ilə tanış olduqda, genasidin kim tərəfindən həyata keçirildiyi bir daha məlum olur. Nəvvabın əsərində qeydə alınmış hadisələri oxuduqda tarixin təkrar olunduğuna, hadisələrin bu gün ilə tam səsləndiyinə təəccüblənirsən. Kitabın "Erməni tayfasına nəsihətlər" hissəsində Nəvvab belə yazır:

"Əvvəla, bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdüməzarlıq və nahaq qanlar tökməkdə, mülklərin və malların

talan və tarac edilməsində və yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir?

Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə və insafsızlığınızla heyhat ağlasığan şey deyil..." (73, 56)

M.M.Nəvvabın "Kəşfül-həqiqeyi-məsnəvi" əsərində əxlaqi, tərbiyəvi, etik və s. problemlərə toxunulmuşdur. Fars dilində yazılmış bu əsər üç hissəli məsnəvidən və "Divan"dan ibarətdir. "Divan"da Nəvvabın qəzəl və rübailəri, müasiri olduğu müxtəlif tarixi şəxsiyyətlərə, ayrı-ayrı hadisələrə həsr etdiyi mənzumələri verilmişdir.

Əsasən nəsihətamiz hekayələrdən ibarət olan məsnəvidə riyaziyyat, astronomiya, musiqi və s. elm sahələri ilə bağlı hissələr də vardır. Məsnəvidəki musiqi ilə əlaqədar üç hissə xüsusi maraq doğurur. İki hekayədə musiqini əyləncə sayan, onun qayda-qanunlarından xəbərsiz olanlar gülüş hədəfinə tutulmuşdur. Həmin hekayələr aşağıdakılardır: Bir xan musiqi elmini kamil bilən mahir xanəndəni sarayına dəvət edir. Xanəndə onun üçün böyük məharətlə "Çahargah" oxuyur. Xan ondan hansı muğamı oxuduğunu soruşur. Xanəndə cavab verir ki, "Çahargah", Xan: "Sən qara camaat üçün də "Çahargah"ı belə oxuyursan? – deyə soruşur. Müğənninin "bəli" cavabını eşidincə xan əsəbiləşir: "Axı mən xanam. Mənim üçün sən "Şəstgah" oxu". Xanəndə bu nadan sözündən çox mütəəssir olur: "Xan, mənim bir qardaşım var, gedib onu sizin yanınıza göndərərəm. O sizin üçün "Şəstgah" da oxuyar, hələ üstəlik "Həftadgah" da, "Həştadgah" da.

Başqa bir hekayədə M.M.Nəvvab musiqini guya ürəkdən sevən, sarayına gəlib oxuyan müğənnilərə hədiyyələr verən şahla naşı xanəndənin görüşündən bəhs edir.

Gözəl səsli, lakin musiqinin nəzəri əsaslarından, qayda-qanunlarından, ifa üsullarından xəbərsiz olan biri həmin şahın vəziri ilə məsləhətləşir, deyir ki, "səsdə mənim tayım-bərabərim yoxdur, ancaq oxumaq yollarını bilmirəm. Nə "Mahur", nə "Hicazi", nə "Hüseyni", nə "Nəva"-bilirəm. Neyləyim? Vəzir ona anladır ki, elə şah özü də musiqinin qayda-qanunlarından xəbərsizdir. Sən oxu, əgər şah muğamın adını soruşsa, mənə tərəf bax. Bir



barmağımı göstərsəm "Rast", iki barmağımı göstərsəm "Dügah", üç barmağımı büksəm "Segah", dörd barmağımı qatlasam "Çahargah" de. Belə də edirlər. Xanəndə istədiyini oxuyur. Hər oxuyub qurtarandan sonra şah muğamın adını soruşur və naşı xanəndə də vəzirin verdiyi işarəyə əsasən adları deyir. "Çahargah"ı oxuyub başa çatdırandan sonra şah xanəndəyə yenə oxumasını əmr edir. O yenə ağzına gələni oxuyur. Şah deyir:

"Bəs bunun adı nədir? Xanəndə vəzirə sarı baxır. Ancaq irəlicədən danışılmış işarələr qurtardığından vəzir başını aşağı salıb boynunu qaşıyır. Bunu da növbəti işarə hesab edən xanəndə:

"Şah, bunun adı "boyungah"dır, – deyir. Cahillikdə ondan geri qalmayan şah: "Bunu bir də tamam oxu. Çox yaxşı muğamdır" deyir. Məclisdəkilər bir tərəfdən xanəndənin səfehliyinə, bir yandan da şahın axmaqlığına dodaqaltı istehza ilə gülürlər. ("Kəşfül-həqiqei-məsnəvi", əlyazma.)

"Kəşfül-həqiqeyi-məsnəvi"də musiqi ilə bağlı üçüncü hissə daha qiymətlidir. M.M.Nəvvab burada şeir dili ilə muğamlar, şöbələr və güşələrin təsnifatını verir. Aşağıda həmin hissənin bütünlükdə tərcüməsini gətiririk:

Şəriət qanunlarına görə öyrənilməsi və öyrədilməsi
caiz, hətta vacib sayılan, ancaq təcrübə olaraq ifa
edilməsi haram sayılan musiqi elmi, muğamat, onun
şöbə və guşələrindəki bəzi istilahların bəyanı.

Musiqi elmini bilsən rəvadır.
(Çünki) sənin məqsədin elmdir, xanəndəlik deyil.
Dörd ünsür olduğu dörd də məqam var
Üç doğulanla birgə yeddi ad edir.
Bu üçü o dördə vursan
Hasili on iki olar.
Bələliklə on iki muğam de ki,
Sənə belə bir sirr aydın olsun:
Şöbələrinin sayı iyirmi dörddür.
Qırx səkkiz güşəsi məşhurdur

Altı bəhri və üsulu var. (Hamısı birlikdə) doxsan edir
Qəbul edirsənsə, bir-bir deyim.
Avazların (sayı) on beşə çatır,
Bu qaydaların əldən buraxma.

*Muğamların adları*

Bil ki, birinci "Rast", ikinci "Üşşaq"dır.
"Busəlik", "Hüseyni", həmçinin "İsfahan"
Daha sonra "Zəngulə", "Rahəvi" gəlir, əzizim.
(Sonra) "Büzürk", "Əraq", "Şadhiz" gəlir.
"Nəva" və "Hicazi" kiçikdir.
On iki muğam bunlardır, ey pak iş görməyi sevən insan.

*Şöbələrin adları*

"Mübərrəh", "Zabul", "Sədа",
"Mütəhəyyar", "Nişapur",
Daha sonra "Üzzəl" və "Əcəm",
Həmçinin "Nohəft", "Bəyatı", "Nəəm"
Sonra "Məğlub", "Mahur", "Hisar"dır.
"Əşiran", "Ərəb", "Xara"nı da say.
"Pənegah", "Dügah", "Çahargah",
Həm "Humayun", "Tərkib", "Segah" (da var).
"Müxalif"i, sonra da "Neyriz"i oxu.
Bunlardan sonra isə güşələri yaxşı bil.

*Guşələrin adları*

Guşələri "Sürur"la (sevinclə) oxusan,
Sonra "Məstana" olanlara "Heyrət"lə bax keç,
"Sipehr"i, "Zəmzəm"i, "Novrəs"i də say
"Kəbir" və "Fəth"i də ürəyində saxla.
"Nəhavənd"i və "Çəkavək"i də hesaba al.
"Xocəstə", "Fərəh"dir bunları tez tap.
"Təxtgah", "Qəsr", "Ouc", "Əbd", "Raz",



"İqbal", "Tuf", "Türk", "Saz"da var.
"Xurrəm", "Əfzun", "Madə", "Xosrovi",
"Şahənşah" və "Şəhidar" da eşit.
"Hüsn", "Nur", "Rah",
"Məruf"la, "Bəstənigar" da var.
"Eşq", "Zir", "Xürrəm", "Nal", "Sər".
Sonra "İşrətgah" və "Nazik"dən xəbər tut.
"Güşad", "Mehtər", "Ağuşdar"
"Xürrəm" və "Əbd" yadigar qalsın.
Sonra "Həziz", "Hudi", "Həsir",
Daha sonra "Rübayəndə" gəlir, yadda saxla.

*Avazların adları*

"Şur", "Şahnaz", "Gərdaniyyə",
"Şüştər", "Səlmək", "Mənsuriyyə",
"Mavərənnəhr", sonra da "Hacıban",
"Bəxtiyar"ı, "Fovq",
"Mayə", "Bali-Kəbutər", "Nehriz",
Sonra "Səfil" və "Novruz" gəlir
Bunların bəzisi "ouc" (yüksək),
bəzisi "həziz"dir (alçaq).
ya "zir" (yüksək), ya "bəm"dir (aşağı), ya da "tul" (uzun),
ya "əriz"dir (geniş)
ya "miyanxana" (orta məqam), ya "əsfəl" (aşağı pillə)olar
ya "şeşdəng" olar ki, o çox mükəmməldir.
Ey pak yollu, bütün bu bəhr və üsullara görə
Dəstgahlar müxtəlifdir.
Kim (bunları) yaxşı bilsə, bilik sahibi olar.
Bütün qaydalar onun qarşısında açılar.
Bütün bu qaydalar və tərkiblər
Başı çıxan üçün asandır, vəssalam.
Nə lazım idisə, Nəvvab dedi
(Sən də) yadda saxla və qoyma gizli qalsın".

M.M.Nəvvabın musiqi elmi və ifaçılığı sahəsindəki fəaliyyəti xüsusilə maraqlıdır. Keçən əsrin 80-ci illərində Mir Möhsün Nəvvab məşhur xanəndə Hacı Hüsü ilə birlikdə Şuşada "Musiqiçilər məclisi" yaratmışdır. Bu məclisdə musiqi sənətinin estetik problemləri, xanəndələrin ifa üsulu, klassik muğamları müşayiət edən şeirlər və digər problemlər müzakirə edilmişdir. bu məclisə öz dövrünün məşhur xanəndə və musiqiçiləri – Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Sadıqcan və başqaları daxil idi. Bir çox musiqiçilər ilk təhsillərini məhz bu məclisdə almışlar.

Məşədi Cəmil Əmirov savadlı musiqiçi olmaq niyyətilə görkəmli musiqişünas M.M.Nəvvabın yanına gəlmişdir. O, musiqi nəzəriyyəsi dərslərini Nəvvabdan almış, onun musiqi məclislərində fəal iştirak etmişdir.

Digər məşhur xanəndə İslam Abdullayev ilk musiqi təhsilini Nəvvabın xanəndə məclisində almışdır. İslamın gözəl səsə və istedada malik olduğunu bilən M.M.Nəvvab şəxsən özü onu yanına dəvət etmişdir. Elə o vaxtdan da İslam həyatını həmişəlik musiqi ilə bağlamışdır.

Seyid Şuşinski də Nəvvabdan Şərq muğamlarının və xalq musiqisinin incəliklərini öyrənmişdir. Nəvvabın məktəbində iki ildən artıq oxuduqdan sonra Nəvvab ona xalq məclislərində və musiqi axşamlarında çıxış etməyə icazə vermişdir.

C.Bağdadbəyov öz xatirələrində M.M.Nəvvab ilə görüşü barədə yazırdı: "Nəvvab az gülən, vüqarlı, mehriban, xeyirxah bir şəxs idi. Bir gün Nəvvabın yanında idim. Bir çox qəzəllərdə anlamadığım kəlmə və cümlələrin mənasını öyrənib yazırdım. Bu halda çox təmiz geyinmiş və paltarından Məkkə ətrinin qoxusu gələn bir dərviş gəlib dedi: "Ağayi, mənim bir gözəl qəzəlim vardır. Amma bazarda oxumaqdan ehtiyat edirəm. Xahiş edirəm ki, qulaq asasınız, hərgah siz qəbul etsəniz, mən də bazarda oxuyaram.[74] Nəvvab dərvişin pəstən oxumasına izn verdi, o da bu qəzəli "Mirzə Hüseyn Segah"ı ilə oxumağa başladı. Nəvvab dərvişin

[74] Hörmət əlaməti olaraq, Nəvvabı "Ağa", "Ağayi" çağırırdılar.



qəzəlinə qulaq asıb, bir qədər güldükdən sonra, hər yerdə oxumağına izn verdi". (18, 149)

Həmin xatirələrdə deyilirdi ki, Nəvvab musiqini inkişaf etdirmək məqsədilə müctəhid Fazil İrəvaniyə[75] müraciət etmiş, ondan musiqi işləri ilə əlaqədar rəsmi surətdə icazə almaq istəmişdir. Lakin Fazil İrəvani çalğıya və zəngulə ilə oxumağa izn verməmişdir. Nəvvab məscid mollalarının katibi olub, iqtisadi cəhətdən mollalardan asılı olmasına baxmayaraq, müctəhidin kafi olmayan cavabından yenə də qorxmamış, əlaltından səsi olan cavanlara qəzəllər verib muğam öyrətmiş, dərvişlərə isə açıqdan-açığa məsnəvi, rast və qeyri muğamatlar təlim etmişdir.

M.M.Nəvvab əsərlərinin birində fars dilində belə yazmışdır:

"Nəvvab nə yazdısa doğruluq və həqiqət üçün yazdı, öz nəfsi üçün yazmadı".

M.M.Nəvvab Azərbaycanın musiqi və poeziya beşiyi Şuşa şəhərində uzun ömür sürmüş, yaratmış, böyük elmi və bədii irs qoyub getmişdir. M.M.Nəvvab 1918-ci ildə Şuşada 85 yaşında vəfat etmişdir. Hər il Şuşada Cıdır düzündə musiqi festivalları keçirilirdi, ənənəvi Vaqif poeziya günləri bayram edilirdi. Belə günlərdə M.M.Nəvvabın ədəbi və musiqi məclisləri yad edilirdi. Cıdır düzündə onun adı ilə bağlı kahada ədəbi məclislər keçirilirdi. M.M.Nəvvabın qəbri də Cıdır düzündə idi. Cıdır düzünə gələnlər bu torpağın oğlu Mir Möhsün Nəvvabın xatirəsini yad etmək üçün onun abidəsi önünə gül-çiçək qoyurdular. M.M.Nəvvab gülləri, çiçəkləri və onların rəsmlərini çəkməyi çox sevərdi.

[75] O dövrdə Fazil İrəvani Zaqafqaziya müsəlmanlarının dini qanun və ehkamlarını başa salan, onları şərh edən baş ruhani idi.